*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 27 fevral 2016-cı il | № 15 (2030) | Qiyməti 25 qəpik


# Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak edib






***24 il əvvəl erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.***

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva anma mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.




Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

* * *

1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı bəşər tarixində ən qanlı faciələrdən biridir. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecədə erməni silahlı dəstələri hələ SSRİ dövründən Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi.


**(Ardı 2-ci səhifədə)**




Tankçılarımız da öz sözlərini deməyə hazırdır


2-ci səhifədə




"Xocalı yol gözləyir"


3-cü səhifədə




"Onların adları qəlbimizdə daim yaşayacaq"


6-cı səhifədə




Vətənimizin bütövlüyü naminə...


7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak edib

(Əvvəli 1-ci səhifədə)

Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu, xüsusilə, Fondun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 21 ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

**AZƏRTAC**

# Azərbaycan ilə Serbiya arasında əlaqələrin inkişaf perspektivləri müzakirə edilib



***Fevralın 24-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiç ilə görüşüb.***

Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubandığını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərdiyini diqqətə çatdırıb.

Müxtəlif sahələrdə Azərbaycan-Serbiya əməkdaşlığının inkişaf etdirilməsində qarşılıqlı marağın olduğu vurğulandığı görüşdə ölkələrimiz arasında əlaqələrin inkişaf perspektivləri müzakirə edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Tankçılarımız da öz sözlərini deməyə hazırdır

***Müdafiə Nazirliyi Mətbuat Xidmətinin bu yaxınlarda yaydığı məlumatlarda qeyd edildiyi kimi, hərbi hissə və birləşmələrdə "Ən yaxşı tank heyəti" adını qazanmaq uğrunda qızğın döyüş yarışması keçirilib. Əslində müxtəlif qoşun birləşmələrində belə yarışların keçirilməsi bir neçə ildir ki, Silahlı Qüvvələrimizdə dəyərli ənənəyə çevrilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "Vətənə, dövlətə və xalqa xidmət ömrümüzün mənasıdır" devizi ilə keçirilən belə tədbirlər hərbi bölmələrin döyüş qabiliyyətinin və şəxsi heyətin vətənpərvərlik ruhunun yüksəlməsində müstəsna rol oynayır.***



Tank qoşunlarına məxsus hərbi hissədə ezamiyyətdə olarkən zabit İntiqam Mirzəyev son təlimlərdə qazanılan uğurlardan danışdı:

- Hərbi qulluqçularımızın təlimdə əldə etdikləri döyüş nailiyyətləri hər birimizdə qələbəyə inam hissini artırır. İstər zabitlər, istərsə də gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları verilən tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Təlimdə əsas məqsədimiz nümunəvi tank heyətlərini aşkarlamaq idi və buna da nail olduq. Bir məsələni qeyd edim ki, tankçılarımız sağlam rəqabət apararaq döyüş qabiliyyətlərini sınaqdan çıxarmaq üçün əsl mübarizə əzmi nümayiş etdirdilər. İnandırım ki, həmin anda döyüşçülərimiz düşmən üzərinə hücuma və yalnız qələbə əldə etməyə tam əmin idilər.

Sonra zabit Şövqi Məmmədovla birgə təlimdə fərqli nəticələr göstərmiş tank heyəti ilə görüşdük. Tankçılar "dəmir at"larının yanında məğrur görkəmdə dayanmışdılar. Hər birinin çöhrəsindən nikbin əhval-ruhiyyə hiss edilən döyüşçülərlə ətraflı tanış olmaq imkanı qazanıram. Tank komandiri gizir Murad Verdiyevin tankçı peşəsinə qırılmaz tellərlə bağlılığı səbəbsiz deyil, axı 2006-2007-ci illərdə əsgəri xidmətini tank bölüyündə keçirib və gənc yaşlarında tankçı olmağa marağı yaranıb. Elə bu məqsədlə də 2011-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gizirlər kursuna yollanıb.

- Yaxın qohumlarımdan biri də ordumuzun tankçı zabitlərindən biridir, - deyən gizir Vacib hərbi peşələrdən birinə bağlılığının səbəblərini izah edir. - Tankı idarə etmək, onun döyüş xüsusiyyətlərinə yiyələnmək bir vaxtlar mənə əlçatmaz arzu kimi gəlirdi. Amma atalar yaxşı deyiblər: niyyətin hara, mənzilin də ora. Bu peşəyə həvəsim artdıqca bacarıqlı tankçı olmağı qarşıma məqsəd qoydum və ötən təlimdə istəyimə çatdım. Təlimin yekunlarına görə fərqlənənlər sırasında bizim heyətin də adı çəkiləndə sevincdən qəlbim uçunurdu.

Heyətin digər bir üzvü - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Həsən Həsənov Tovuz rayonundandır, əsgərliyini isə Naxçıvanda yerləşən hərbi hissələrdən birində keçirib. Bir ildir ki, tank heyətində sürücü-mexanik vəzifəsində xidmət edən vətənpərvər gəncin sözlərinə görə, tez-tez keçirilən təlimlər onu döyüş bacarığını daha da artırmağa ruhlandırır. "Tankçı olmaq şərəfdir, həm də məsuliyyətlidir. Bu şərəfə nail olduğuma görə qürurluyam".

Növbəti müsahibim isə Qazax rayon sakini, müqavilə ilə ordumuzda xidmətini davam etdirən Elşad Nəsibovdur. Üzvü olduğu heyətin son təlimdəki uğurundan danışan hərbi qulluqçu düşmənlə sərhəd bölgəsində yaşadığı üçün döyüşçü olmağı özünə əsas vəzifə bilib. "Gözümü açandan ətrafımda hərbi formalı adamları görmüşəm və başa düşmüşəm ki, torpaqlarımız bu insanların hesabına qorunur".

Tankın döyüş xüsusiyyətlərini mükəmməl bilən, nəzəri və praktik vərdişlərə yetərincə yiyələnmiş hərbi qulluqçularla tanışlığım məndə xoş ovqat doğurur. Hər birinin köksündə Vətən sevgisini aydınca duyuram, çünki onlar da bir vətəndaş olaraq bu məmləkətin, bu yurdun ağrılarına acıyır, düşməndən intiqam almaq hissi keçirirlər. Şübhəsiz, Vətən təəssübü çəkən bu gənclərimiz də ordumuzun qarşısında dayanan mühüm döyüş tapşırığının icra edilməsinə öz töhfələrini verəcəklər.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu"**

# "Xocalı yol gözləyir"



***Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Goranboy və Xocalı rayon İcra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə xocalıların məskunlaşdığı Aşağı Ağcakənd qəsəbəsində Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar "Xocalı yol gözləyir" devizi altında faciə qurbanlarının kütləvi anma mərasimi keçirilib.***

Relyef etibarı ilə Xocalını xatırladan təpədə əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenari və rejissorluğu ilə reallaşan teatrlaşdırılmış kütləvi mərasimi yüzlərlə Goranboy və Xocalı sakini, eləcə də bölgədə Vətən torpaqlarının keşiyini çəkən hərbi qulluqçular izləyiblər.

Hərbçilərin və döyüş texnikalarının cəlb edildiyi tədbirdə 24 il əvvəl fevralın 25-dən 26-na keçən gecə qədim Azərbaycan şəhəri Xocalıda törədilmiş, bəşər tarixində ən dəhşətli qətliamlardan olan faciədən səhnələr canlandırılıb. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı üzvlərinin, Gəncə Dövlət Dram Teatrı aktyorlarının, eləcə də Goranboy rayon Mədəniyyət və Turizm şöbəsi birləşmiş özfəaliyyət kollektivlərinin iştirakı ilə bir-birindən təsirli səhnələr təqdim olunub.

Aparıcılar, Abdulla Qurbani və xalq artisti Pərvanə Qurbanova faciənin başvermə səbəblərini, azərbaycanlılara qarşı ermənilərin və onların havadarlarının apardıqları növbəti soyqırımını faktlar və rəqəmlərlə xatırladıblar.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev, Goranboy rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev rayon ərazisində məskunlaşmış Xocalı sakinlərinə həmişə dayaq olduqlarını, ölkə rəhbərliyinin onlara daim diqqət və qayğı göstərdiyini qeyd ediblər.

Bu soyqırımın erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olduğunu qeyd edən birlik komandiri general-mayor Hikmət Həsənov tədbir iştirakçılarını əmin edib ki, xalqına və dövlətinə arxalanan Azərbaycan əsgəri işğal altında olan torpaqları azad etmək üçün Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdır və qələbə bayrağımız tezliklə işğal altındakı torpaqlarda, eləcə də Xocalıda dalğalanacaqdır.



Xocalı rayon İcra Hakimiyyəti başçısının müavini Vahid Əliyev çıxış edərək xocalılara göstərilən diqqət və qayğıya görə, dərdlərinə həmişə şərik olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə xocalılar adından minnətdarlığını bildirib.

Tədbirin sonunda bölgənin müdafiəçiləri və bütün tədbir iştirakçıları Xocalını azad etmək uğrunda mübarizəyə hazır olduqlarını qeyd ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



## Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun təlim kursu başa çatdı

***Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO arasında 2016-cı il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında təlim kursu keçirildi.***

NATO-nun Brunssum şəhərində yerləşən Birləşmiş Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən "Birgə Əməliyyat və Səfər Qiymətləndirilməsi" mövzusunda keçirilən kursa Silahlı Qüvvələrin müxtəlif qoşun növlərinin zabitləri cəlb olunmuşdu.

Təlimdə NATO-nu təmsil edən mayor Kristian Hafik (Norveç), mayor Kadir Yalçın (Türkiyə), mayor Rəşad Əhmədov təlim mövzusunu müxtəlif baxımdan şərh etdilər. İlkin məlumatlandırma xarakterində olan bu təlim gələcəkdə daha geniş miqyasda keçiriləcəkdir. Belə təlimlər döyüş əməliyyatlarının səmərəliliyinin artırılmasına hesablanır.



Təlim kursunda NATO nümayəndə heyəti tərəfindən iştirakçılara "NATO-nun hərbi strukturu", "Hərbi tərəfdaşlıq", "Əməliyyat planlaşdırma prosesi", "Əməliyyatların qiymətləndirilməsi", "Məlumatların toplanması və təhlili" və digər mövzularda məlumatlar verildi, sindikatlar (qrup təlimləri) keçirildi.

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***26 fevral 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 117 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində, Berd rayonunun Çinari, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağdam, Əlibəyli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Çaylı, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Nəmirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 118 dəfə atəş zərbəsi endirib.

# Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar Silahlı Qüvvələrdə silsilə tədbirlər keçirilib

***Təsdiq edilmiş tədbirlər planına əsasən, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində keçirilən anma mərasimində 1992-ci il fevralın 26-da erməni faşistləri tərəfindən Azərbaycan xalqına, eləcə də insanlığa qarşı törədilmiş ən qəddar və amansız soyqırımı qurbanlarının xatirəsi anılıb.***




Çıxış edənlər şəxsi heyətə faciənin əsl mahiyyəti haqqında məlumat verib, xatirələrini bölüşüblər. Natiqlər vurğulayıblar ki, bəşər tarixində vəhşiliyinə görə ən qanlı kütləvi terror hadisəsi olan Xocalı soyqırımı erməni quldurlarının dinc əhaliyə qarşı törətdikləri müdhiş cinayətdir.

Tədbir Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyası tərəfindən hazırlanan "Xocalı" filminin nümayişi ilə sona çatıb.

* * *

Cəbhə bölgələrindəki hərbi hissələrdən birində keçirilən tədbirdə Xocalı qurbanlarının, eləcə də Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni oxunub.



Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxış edərək Xocalı soyqırımını törətməklə erməni millətçilərinin məkrli məqsədlər güddüyünü, onların xalqımızı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqlarının işğalı faktı ilə barışmağa məcbur etmək niyyətində olduqlarını nəzərə çatdırıb. Qeyd edilib ki, hiyləgər və amansız düşmən heç də öz məqsədlərinə çata bilməyib. Xocalı müdafiəçiləri qəddar düşmənlə mübarizədə əyilməyərək qəhrəmanlıqla vuruşub, Vətənə sədaqət nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalıblar.

Bu gün qarşımızda duran əsas vəzifə Xocalı soyqırımı qurbanlarını hörmət və ehtiramla yad etmək, bu faciəni dünyaya tanıtmaq, Xocalıya ədalət tələb etməklə yanaşı, işğal altında olan əzəli və əbədi torpaqlarımızı düşmən tapdağından azad etməkdir. Bunun üçün də hər bir əsgər və zabit Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etməli, ona həvalə edilmiş döyüş texnikalarını və silahları dərindən öyrənməli, işğal altında olan torpaqlarımızın azadlığı naminə müqəddəs savaşa hər an hazır olmalıdır.

Zabitlərdən polkovnik-leytenant Musa Teymurov və mayor Namiq Cavadov deyiblər ki, düşmənlərimiz hələ də "Böyük Hayastan dövləti" yaratmaq xülyasından əl çəkməyib, torpaqlarımızdan rədd olub getmək istəmir, qan tökməkdən usanmır, beynəlxalq hüquqa məhəl qoymur, dünyanın nüfuzlu təşkilatlarının tələblərini yerinə yetirmirlər. "Yenə də hər gün atəşkəs rejimi pozulur, Ermənistan silahlı bölmələri mövqelərimizi intensiv olaraq atəşə tutur, təxribatlar törədirlər. Lakin buna baxmayaraq düşmənə layiqli cavab verilir, şəhidlərimizin intiqamı birə on qat alınır və bundan sonra da alınacaqdır. Hər bir əsgər və zabit zaman-zaman xalqımızın başına gətirilən soyqırımı və faciələrdən nəticə çıxararaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək naminə Ali Baş Komandanın əmrlərinə hər an hazırdırlar".

Respublikanın əməkdar mədəniyyət işçisi Vaqif Vəliyevin rəhbərlik etdiyi Füzuli Dövlət Dram Teatrı aktyorlarının ifasında təqdim edilən "Şəhid şəhər Xocalı" adlı rekviyem-tamaşa şəxsi heyət tərəfindən böyük həyəcanla izlənilib və hər bir Vətən əsgərini Xocalı qurbanlarının qisasını almağa, Azərbaycan ərazi bütövlüyünü tezliklə təmin etməyə daha da ruhlandırıb.

* * *

Xocalı faciəsi ermənilərin bəşər tarixində törətdiyi ən qanlı soyqırımı aktlarından biridir. Bu dəhşətli faciədən 24 il keçir. 24 ildir ki, Xocalı faciəsinin ağrı-acıları ilə yaşayırıq. İndi həm ölkəmizdə, həm də dünyanın bir çox dövlətlərində Xocalı faciəsinin ildönümü ilə əlaqədar tədbirlər keçirilir, şəhidlər hörmətlə anılır.

Bu günlərdə Azərbaycan Hərb Tarixi Muzeyində Xocalı faciəsinin 24-cü ildönümü ilə bağlı "Qan yaddaşımız - Xocalı" adlı tədbir keçirildi. Əvvəlcə tədbirin gündəliyi mərasim iştirakçılarının diqqətinə çatdırıldı. Tədbiri Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açıq elan etdi. Xocalı faciəsində, ölkəmizin müstəqilliyi uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini oxudular.

Çıxış etmək üçün söz muzeyin rəisi Ə.Qənizadəyə verildi. O çıxışına bu sözlərlə başladı:

- Neçə illərdir ki, Xocalı faciəsi ürəyimizi yandırır. Xocalı bizim sağalmayan yaramızdır. Erməni millətçiləri zaman-zaman Azərbaycan xalqına qarşı soyqırımı, cinayətlər törətmişlər. Xocalı faciəsi bəşər tarixinə ən kütləvi terror aktlarından biri kimi daxil olmuşdur. Xocalı faciəsi Xatın, Xirosima, Naqasaki, Sonqmi faciələri qədər dəhşətli və tükürpədicidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və ermənilərdən ibarət silahlı dəstələr, həmçinin keçmiş Sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının şəxsi heyətinin və texnikasının dəstəyi ilə Xocalı şəhəri üzərinə hücuma keçdilər. Şəhər yerlə-yeksan edildi, sakinlər amansızcasına öldürüldü. Ermənilərin hücumları qəfil olduğundan xilas olmaq mümkün deyildi. 25 min əhalisi olan Xocalı şəhəri mühüm strateji əhəmiyyətə malik idi.

Sonra Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyası əməkdaşlarının hazırladığı "Xocalı - əsrin faciəsi" adlı qısametrajlı film nümayiş olundu.

Muzeyin arxiv və ekspozisiya üzrə rəis müavini, ehtiyatda olan polkovnik-leytenant Tələt Qarayev, ekspozisiya hissəsinin rəisi Şəlalə Hüseynova çıxış edərək Xocalı faciəsinin ağrı-acılarından danışdılar.

* * *

Fevralın 26-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin birgə təşkilatçılığı ilə Xocalı faciəsinin ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə hər iki tədris müəssisəsinin zabit və kursant heyəti iştirak edib.

Hərbi Liseyin şəxsi heyətlə iş üzrə rəis müavini polkovnik-leytenant Kamran Nəsibov mərasimi açıq elan etdi. Sonra ümummilli lider Heydər Əliyevin, Xocalı faciəsi qurbanlarının və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni oxundu.

Daha sonra səhnə kursantların ixtiyarına verildi. Onlar hərbi liseyin tarix müəllimi



Azad Əliyevin və "Yurdumuzun tarixi" dərnəyinin təşkilatçılığı ilə hazırlanan ədəbi-bədii kompozisiya nümayiş etdirdilər.

Budur, kursantlar müdhiş hadisəni nəql edirlər: "Qar yağan sərt qış gecəsi. O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə müsibət, belə vəhşilik görməmişdi. Evlərə-eşiklərə od vuruldu, torpaq qana qərq edildi. Düşmən rəhm diləyən qocaya, xəstəyə, qadına, uşağa aman vermədi". Bunun ardınca Xocalı faciəsinə həsr edilən sənədli filmdən fraqmentlər nümayiş etdirilir. Ədəbi-bədii kompozisiyanın bir yerində isə Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin, Tofiq Hüseynovun, Aqil Quliyevin fədakarlıqları xatırlanır. Kursantlar onların əfsanəvi şücaətlərindən danışırlar. Həmçinin qeyd olunur ki, bu faciənin çəkilib günümüzə çatdırılmasında böyük xidmətləri olan Milli Qəhrəman Çingiz Mustafayevin şücaətləri unudulmazdır.

Sonda Silahlı Qüvvələrimizin genişmiqyaslı təlimlərini əks etdirən video çarx nümayiş etdirildi.

* * *

Ermənilər nəyin bahasına olursa-olsun, Xocalını işğal etməyə çalışırdılar. Xocalı 1991-ci ilin oktyabrından mühasirədə qalmışdı. Erməni silahlıları şəhərə gedən avtomobil yollarını bağlamışdılar. Xocalılar yalnız öz sakinlərinin qəhrəmanlığı və cəsurluğu sayəsində müdafiə olunurdu.

Xocalıya hücum planı Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın rəhbərliyi ilə hazırlanmış və Xankəndi şəhərinin baş memarı V.Stepanyan tərəfindən tərtib olunmuşdu. Şəhərə hücum 1992-ci il fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanmışdı. Əvvəlcə şəhər iki saat top və tanklardan, həmçinin "Alazan" tipli zenit toplarından atəşə tutulmuşdu. Hücum beynəlxalq miqyasda millətçi kimi tanınan erməni icmalarının, diaspor təşkilatlarının birgə hazırladıqları "böyük Ermənistan" planının tərkib hissəsi idi. Düşmənlər şəhər üzərinə gecə saat 23.00 radələrində hücuma keçiblər. Ətraf aləmdən təcrid olunmuş və zəif silahlanmış döyüşçülərimiz güclü hücum qarşısında çox dayana bilməyiblər. Şəhər ermənilərin əlinə keçib.

(Ardı 5-ci səhifədə)

# Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar Silahlı Qüvvələrdə silsilə tədbirlər keçirilib

(Əvvəli 4-cü səhifədə)

Xocalıya üç istiqamətdən hücum olunduğundan əhali Əsgəran və Ağdam istiqamətində qaçmağa məcbur olmuşdu. Onlar hara qaçsalar da, xilas ola bilməmişlər. Dağlarda və meşələrdə erməni silahlı dəstələri tərəfindən güllələbaran edilmişdilər. Xocalı soyqırımında iştirak edən kəşfiyyatçı zabit polkovnik Vladimir Savelyev özünün "məxfi arayış"ında erməni terror təşkilatlarıyla 366-cı alayın qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatlar zamanı bütün baş verənləri belə etiraf etmişdi: "Mən bütün bunları yazmaya bilmərəm. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmərəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım arayışı həm Kremlə, həm də SSRİ Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun, dedim. Görün, biz rusların zabit şərəfi necə ləkələndi".






Bundan sonra bu yüksək çinli zabit həmin mətnə, 366-cı motoatıcı alayın komandiri Zaviqorov Yuri Yuriyeviç də daxil olmaqla, 55 rus hərbçisinin adı olan siyahını da əlavə edib. Digər məlumatlarda göstərilir ki, 366-cı alayın hərbi qulluqçuları azərbaycanlıların yaşayış məntəqəsinə bir top atəşinə görə 1300 rubl, BTR-in bir gecəlik icarəsinə 5000 rubl, altı PDM-dən ibarət qrupun hər reydi üçün 1.5 milyon rubl, kiçik rütbəli zabitlərin təlimatlarının göstərişlərinə 3-4 min rubl alırdılar. 366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlinə keçmişdi. Üstəlik, Fransadan göndərilən 142 avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd bronejilet, 11 ton konservləşdirilmiş yemək, 1200 cüt ayaqqabı, 146 ədəd tapança ermənilərin istifadəsinə verildi. Amerika istehsalı olan 149 ədəd rabitə vasitələri ermənilərə paylandı.

1994-cü il fevralın 24-də Milli Məclisin qərarı ilə fevralın 26-sının "Xocalı soyqırımı" günü kimi qeyd olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi ilə Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verildi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə əsrin bu böyük faciəsi dövlət tərəfindən öz qiymətini aldı. 1995-ci il fevralın 24-də Milli Məclis dünya parlamentlərinə və beynəlxalq təşkilatlara Xocalı soyqırımı ilə bağlı müraciət etdi.

Xocalıda axıdılan göz yaşları hələ də qurumaq bilmir. Bu göz yaşları hamımızın içini göynədir, qəlbimizi yandırır. Bu gün hamımız ermənilərdən intiqam almaq hissi ilə yaşayırıq. Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə düşmən üzərində Qələbə qazanmağa hazırıq.

* * *

Azərbaycan tarixinin ən qanlı səhifələrindən olan Xocalı soyqırımı heç zaman xalqımızın yaddaşından silinməyəcək. Silahlı Qüvvələrimizdə də hər il bu dəhşətli qətliamın qurbanları dərin ehtiramla yad edilir. "N" hərbi hissəsində Kürdəmir rayon İcra Hakimiyyəti nümayəndələrinin iştirakı ilə Xocalı soyqırımına həsr edilmiş tədbir keçirilib.

Mərasimdə ümummilli lider Heydər Əliyevin və faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri 366-cı rus alayının köməyilə hər tərəfdən Xocalıya hücuma keçdi və bütöv bir şəhərin əhalisinə qarşı dəhşətli qırğın törətdilər. İnsan olduqlarını tamam unutmuş bu vəhşilər nə qocaya, nə qadına, nə də uşağa rəhm etmədilər.

Mərasimdə çıxış edən polkovnik-leytenant Azər Yaqubov Xocalının xalqımız üçün böyük itki olduğunu, qırğına məruz qalmış şəhər sakinlərinin yaddaşlarda daim yaşadığını dilə gətirdi.

Kürdəmir rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Ələsgərli dövlət rəhbərliyi səviyyəsində Xocalı şəhərində qətlə yetirilmiş günahsız dinc insanların xatirəsinin əziz tutulduğunu söylədi. Vüsalə xanım qüdrətli Silahlı Qüvvələrimizin yaxın gələcəkdə zəbt edilmiş Azərbaycan torpaqlarını, o cümlədən yerlə-yeksan edilmiş Xocalı şəhərini erməni işğalçılarından azad ediləcəyinə ümidvar olduğunu bildirdi.

Çıxış üçün söz alan mayor Teyfur Aslanov, baş leytenant Elvin Qurbani, əsgərlərdən Kamran Ağayev, Asim Poladov Xocalı soyqırımının ildönümü ilə bağlı düşüncələrini bölüşdülər, erməni qaniçənliyinin günahsız qurbanlarının heç vaxt unudulmayacağını söylədilər və bu bəşəri cinayəti törədənlərin gec-tez öz layiqli cəzalarına çatacaqlarına inandıqlarını bildirdilər.

* * *

Ötən iki əsrdə erməni millətçiləri qondarma "böyük Ermənistan" dövlətini yaratmaq üçün qədim Azərbaycan ərazilərinə təcavüz ediblər, torpaqlarımızda dəfələrlə soyqırımı aktları törətməyə və güclü himayədarlarının siyasi-hərbi dəstəyi nəticəsində qəsbkarlıq siyasətini həyata keçirməyə nail olublar. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, qədim Zəngəzur, Göyçə, İrəvan və digər ərazilər də vaxtilə bizim ata-baba torpaqlarımız olub və indiki Ermənistan dövləti məhz Azərbaycanın əzəli ərazilərində yaradılıb.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın qədim Qarabağ bölgəsinə məxsus olan Xocalı şəhəri düşmənin amansız hücumuna məruz qalmışdı. Həmin gün tarixdə misli görünməyən bir soyqırımı törədilmişdi və günahsız insanlar qanına qəltan edilmişdi. Şübhəsiz, bu qanlı cinayətin törədilməsində o zamankı Sovet rejiminin siyasi və hərbi rəhbərliyi də az məsuliyyət daşımır. Faktlara əsaslanıb qeyd etmək lazımdır ki, Xankəndidə mövcud olan və rus ordusuna məxsus 366-cı alay həm şəxsi heyəti, həm də silah-sursatı və hərbi texnikası ilə bu qətliamın birbaşa iştirakçısı olub.

Keçən əsrin sonlarında fəallaşan erməni daşnakları o vaxtkı SSRİ rəhbərliyinin köməyi ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən alınaraq Ermənistana birləşdirilməsi iddiasını gerçəkləşdirmək üçün xalqımıza qarşı növbəti işğalçılıq siyasətinə başladılar. Məhz Xocalı soyqırımı da bu hadisələrin başlanğıcı idi. Xankəndinin yaxınlığında və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının qovuşacağında yerləşən Xocalı şəhəri strateji əhəmiyyət kəsb edirdi. Qarabağda yeganə aeroportun da burada yerləşməsi onun əlverişli bir mövqe olduğunu sübut edən amillərdəndir. Tarixin tunc və dəmir dövrlərinə aid olan abidələrin Xocalıda yerləşməsi bu yaşayış məntəqəsinin azərbaycanlıların ən qədim məskənlərindən olduğunu deməyə əsas verir.

Azərbaycanlıların nəzarətində olan yeganə aeroportun ələ keçirilməsi ermənilərin ilkin məqsədlərindən biri olub. Əslində Xocalı 1991-ci ilin axırlarından blokada şəraitinə məruz qalıb, çünki buraya gələn avtomobil yolu ermənilərin nəzarətində idi. Qəhrəman müdafiəçilərinə ümid bəsləməkdən savayı Xocalı əhalisinin heç bir çarəsi yox idi. Güclü silahlanmaya malik olan erməni hərbi birləşmələri ilə müqayisədə, demək olar, könüllü döyüşçülərimizin silah-sursatı



yox dərəcəsindəydi. Belə ekstremal mühitdə heç olmasa dinc sakinləri - qocaları, qadınları və körpələri Ağdama çatdırmaq lazım idi. Və Xocalının mətin oğulları qismən də olsa bu tapşırığı icra edə bildilər. Amma bundan duyuq düşən düşmən Ağdam istiqamətinə gedən yolda pusqu yaradaraq nə qədər günahsız vətəndaşımızı qətlə yetirdi.

Bu qanlı faciədən illər ötməsinə baxmayaraq, onun dəhşətli səhnələri unudulmur, qəlbimizi göynədir. Hər il nəinki ölkəmizin ictimaiyyəti, həmçinin xarici dövlətlərdə yaşayan soydaşlarımız da Xocalı qurbanlarının xatirəsini ehtiramla anır və günahkarların cəzalandırılmasını tələb edir. Qeyd etmək istərdim ki, on-on beş il əvvəlki dövrlə müqayisədə bu gün Azərbaycan dövləti və ictimaiyyəti tərəfindən tək Xocalı soyqırımının deyil, digər üzləşdiyimiz etnik təmizləmə siyasətinin ağrı-acıları geniş təbliğ olunur, əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün məqsədyönlü tədbirlər görülür. Əlbəttə, bu sahədə Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən irimiqyaslı təbliğat işlərini qeyd etmək yerinə düşərdi. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanan "Xocalıya dəstək" hərəkatı da dünyanın hər yerində Azərbaycan həqiqətlərinin tanıdılması üçün təqdirəlayiq işlər görür. Eyni zamanda vətənpərvər soydaşlarımızı özündə birləşdirən diaspor təşkilatları fəaliyyət göstərdikləri dövlətlərdə, iri şəhərlərdə, vilayətlərdə Xocalı qətliamının ildönümünü hər il geniş qeyd edir.

Azərbaycan Prezidenti İlham Əliyev daim mötəbər tədbirlərdə və diplomatik görüşlərində Ermənistanın təcavüzkarlıq siyasətini ifşa edərək təcavüzkar dövlətin rəhbərliyinin cəzalandırılmasını israrla tələb edir. "Ermənistanda mövcud olan hazırkı diktator rejimi cəzalandırılmasa, regionda işğalçılıq siyasətinə son qoyulmayacaqdır".

Tarix səhnəsində baş verən dəhşətli müharibələrin ağır nəticələri heç zaman unudulmur, yaddaşlarda xatırlanır və günahkarlar ədalət mühakiməsindən yaxa qurtara bilmirlər. Hesab etmək olar ki, Xocalı soyqırımının əsl səbəbkarları da gec-tez tarixin qətiyyətli hökmü və günahsız insanların ruhu qarşısında cavab verəcəklər. Bu gün Azərbaycan vətəndaşlarının əsas vəzifəsi xalqımızın düşmənlərinə qarşı hərtərəfli mübarizədə fədakarlıq nümayiş etdirməkdir. Ümummilli lider Heydər Əliyev bu faciənin hər bir azərbaycanlının sağalmaz dərdi olduğunu bildirərək demişdi: "Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edərkən onların qarşısında hər birimiz vicdan və vətəndaşlıq borcu haqqında düşünürük. Bu borcu ödəməyin ən yaxşı yolu Xocalı qəhrəmanlarının uğrunda öz həyatlarını qurban verdikləri idealları yaşatmaq, müstəqil Azərbaycan dövlətini qorumaq, onun sərhədlərinin toxunulmazlığını, bütövlüyünü təmin etməkdir". Bu vəzifə həm də Silahlı Qüvvələrimizin şəxsi heyətinin üzərinə böyük məsuliyyət qoyur. Dövlətimiz və xalqımız əmin olmalıdır ki, təlim və məşqlərdə döyüş vərdişlərini artıran hərbi qulluqçularımız şəhidlərimizin qisasını düşməndən almağa, ulu öndərin dediyi kimi, qəhrəmanlarımızın uğrunda öz həyatlarını qurban verdikləri ideallara sədaqətlərini sübut etməyə bir nəfər kimi hazırdır.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Milli Qəhrəmanlarımız

# "Onların adları qəlbimizdə daim yaşayacaq"

***Fevralın 25-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində C.Naxçıvanski adına Hərbi Liseyin təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı Eldar Məmmədovun xatirəsinə həsr olunmuş tədbir keçirilib. Anım mərasimində liseyin zabit, müəllim və kursant heyəti, qəhrəmanın ailə üzvləri, doğmaları iştirak edib. Tədbir başlamazdan öncə liseyin bir qrup müəllim və kursant heyəti Şəhidlər xiyabanına gələrək Milli Qəhrəmanın məzarını ziyarət edib, qəbri önünə tər qərənfillər düzüb və xatirəsini ehtiramla anıb.***






Sonra ümummilli lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni oxunub.

Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Kamran Nəsibov tədbiri açaraq, çıxışında müasir Azərbaycan tarixinə öz misilsiz igidlikləri ilə şanlı səhifələr yazan Qarabağ müharibəsinin qəhrəmanları arasında liseyin məzunlarının da olduğunu qeyd edib. "Yaşadığımız dövrün şərəf dastanlarını yaradan qəhrəmanların adları xalqın varlığı və gələcəyi üçün bir qürur mənbəyidir", - deyən zabit belə qəhrəmanlardan birinin də 1993-cü il fevralın 24-də Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olan C.Naxçıvanski adına Hərbi Liseyin məzunu Eldar Harun oğlu Məmmədov olduğunu diqqətə çatdırıb.

Aparıcı kursantlar çıxışlarında E.Məmmədovun qısa, lakin mənalı ömür və şərəfli döyüş yolundan danışıblar. Qeyd edilib ki, 10 yanvar 1968-ci ildə Bakı şəhərində dünyaya göz açan Eldar 189 saylı məktəbin nümunəvi şagirdlərindən biri olub. Uşaqlıqdan hərbçi peşəsinə yiyələnmək arzusu onu 1982-ci ildə Hərbi Liseyə gətirib çıxarır. Burada 1982-1985-ci illərdə təhsil alır. Riqa şəhərində S.S.Biryuzov adına Qırmızı bayraqlı Ali Hərbi-Siyasi Məktəbi bitirən Eldar bir müddət Sovet ordusunda xidmət edir. Erməni işğalçılarının Azərbaycana hücumu başlayanda gənc zabit raport yazaraq öz Vətəninə qayıdır. O, yenicə yaradılan sərhəd qoşunlarına müraciət edərək orada xidmətə qəbul olunur. Qısa müddətdə özünü bacarıqlı, istedadlı, peşəkar bir zabit kimi göstərən E.Məmmədova baş leytenant hərbi rütbəsi verilir. Lakin erməni quldurlarının torpaqlarımıza aramsız hücumları onu gecə-gündüz narahat edir. Gənc zabit bir gün öz qərarını verir və 15 fevral 1993-cü ildə Ağdərə istiqamətində gedən ağır döyüşlərə qatılır. Mehmanə, Kasapet kəndlərinin müdafiəsində azğınlaşmış erməni faşistlərinə qarşı döyüşdə fədakarlıq nümunələri göstərir. 1993-cü il fevralın 24-də Kasapet kəndi yaxınlığında erməni silahlı dəstələri bu yüksəkliyi ələ keçirmək məqsədi ilə güclü hücuma keçirlər. Qeyri-bərabər döyüşdə o, düşmənin xeyli canlı qüvvəsini məhv edir. Bu onun son döyüşü idi...

Tədbirdə "Bayraqları bayraq edən üstündəki qandır, Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" adlı ədəbi bədii kompozisiyada hərbi vətənpərvərlik şeirləri söylənilib və mahnıları səsləndirilib.

Liseyin ingilis dili müəllimi Hüseyn Həsənov "Şəhidlər xiyabanı" mahnısını ifa edib və bu mahnının sədaları altında qəhrəmanın məzarının ziyarətindən video süjet nümayiş olunub.

...Bu gün qəhrəman vaxtilə təhsil aldığı doğma məktəbin-



də anılır. O, şəhid olanda 25 yaşını təzəcə tamamlamışdı. Subay idi. Sonsuz arzularla yaşayırdı... Eldarın bütün müqəddəs amalları adını daşıyan Dövlət Sərhəd Xidmətinin Göytəpə Sərhəd Dəstəsinin zabit və gizir heyətinin, məzunu olduğu C.Naxçıvanski adına Hərbi Liseyin kursantlarının xatirəsində, həmçinin onu tanıyanların ürəyində əbədi yaşayacaq.

Daha sonra Milli Qəhrəmanın bacısı Sevinc Məmmədovaya söz verilib. O, hər kəsə minnətdarlığını ifadə edib, kursantları qəhrəmanların keçdiyi döyüş yolundan örnək götürməyə çağırıb.

Tədbirdə Silahlı Qüvvələrin irimiqyaslı təlimləri ilə bağlı video çarx nümayiş etdirilib. Sonra mərasim qəhrəmanın xatirəsinə həsr olunan yüngül atletika üzrə bölüklərarası turnirin qaliblərinin və təşkilatçılarının təltif edilməsi ilə davam edib.

Qeyd edək ki, Hərbi Liseydə Milli Qəhrəmanların xatirəsinə ehtiram əlaməti olaraq idman yarışlarının keçirilməsi ənənəvi hala çevrilib. Məktəbin şəhid qəhrəmanları Əfqan Hüseynov, Elşad Əhədov və Eldar Məmmədovla bağlı xatirə turnirləri təşkil olunub. Qarşıda keçiriləcək turnir isə Milli Qəhrəman Cəlil Səfərova həsr edilib.

Sonda Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov yarışın təşkilatçılarını, qaliblərini fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıb, qalib komandaya kuboku təqdim edib. Lisey rəisi respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin unudulmayacağını, onların adlarının daim qəlbimizdə yaşayacağını söyləyib. Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azad olunacağına və bütün işğal olunmuş rayonlarımızda üçrəngli bayrağımızın tezliklə dalğalanacağına əminliyini bildirib.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MAHMUDUNDUR**

# Ali Hərbi Məktəbdə praktiki tədris və təlim məşğələləri keçirilib



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində plana uyğun olaraq kursantların hazırlığı üzrə praktiki tədris və təlim məşğələləri keçirilib

Məşğələlərdə əsas diqqət hərbi qulluqçular tərəfindən hərbi vasitələrin düzgün istifadə və tətbiq edilməsi bacarıqlarının artırılmasına yönəldilib.

Təlimlər çərçivəsində kursantlara rabitə vasitələrinin düzgün işə salınması və rabitə əlaqəsinin yaradılması, xəsarət almış hərbi qulluqçulara ilkin tibbi yardımın göstərilməsi və onun təxliyyəsi üçün vacib olan tədbirlərin icrasına dair məşğələlər də keçirilib.

"Gəmiçilik və radiotexniki sistemlər" kafedrasında keçirilən təlimlər zamanı kursantlara hərbi gəminin radiotexniki vasitələrinin göyərtə üzərində yerləşdirilməsi, təyinatı və iş qabiliyyətləri öyrədilib.

Bundan əlavə "Hərbi topoqrafiya" fənni üzrə məşğələdə kursantlar ərazinin relyef quruluşunun yaradılmış topoqrafik xəritə maketi vasitəsi ilə öyrənilməsi kimi biliklərə də yiyələniblər.



**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

Əsgərin tribunası

# Vətənimizin bütövlüyü naminə...

**Bu gün müstəqil Azərbaycanımızın əsgəri olmağımla qürur duyuram. Ordumuzun gücü günü-gündən artır. Silahlı Qüvvələrimizdəki müasir hərbi texnika və silahlar peşəkar hərbçilərimizin sayəsində yüksək səviyyədə idarə olunur. Sevinirəm ki, belə bir güclü ordunun əsgəriyəm.**




"Açıq qapı" günündə valideynlərimiz, yaxın qohumlarımız bizi ziyarət etməyə gəlmişdi. Xidmət etdiyim hərbi hissədə şəraiti gördə onların ürəyi dağa döndü. Yataqxana, yeməkxana və camaşırxana otaqlarını bir-bir gəzdilər. Valideynlərim tibb məntəqəsi ilə də maraqlandılar. Burada da müasir tibbi avadanlıqlarla təmin olunmuş otaqları gördülər. Onu da deyim ki, hərbi hissəmizdə bacarıqlı tibb heyəti daim sağlamlığımızın keşiyindədir. Fəsil dəyişən vaxt qrip xəstəliyi yayılır. Buna qarşı hərbi hissəmizin tibb xidməti ciddi iş aparır. Özümüzü doğma evimizdəkindən də rahat hiss edirik. Bütün bunlar Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin biz əsgərlərə göstərdiyi diqqətin sayəsindədir.

İstirahət günləri asudə vaxtımızı maraqlı keçirmək üçün televiziya verilişlərini izləyirik. Bədii kitablar oxuyuruq, səliqə-sahmanımızla, təmizliklə məşğul oluruq. Əsgəri xidmətə başladığım gündən 5 ay keçir. Artıq yavaş-yavaş hərbi vərdişlərə yiyələnirəm. Sıra hazırlığı, fiziki hazırlıq məşğələlərində fəal iştirak edirəm. Təlimlərdə silahlardan istifadə qaydalarını öyrənirəm. Xidmətə gəlməmişdən öncə televiziyada Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tez-tez ön xəttə gedib əsgərlərlə görüşdüyünü, onlarla necə söhbət etdiyini görürdüm və qürurlanırdım.

Mən Bakı şəhəri Sabunçu rayonundan hərbi xidmətə çağırılmışam. Şəhid Ərəstun Mahmudov adına 220 saylı orta məktəbdə təhsil almışam. Hələ orta məktəbdə oxuduğum zaman hərbi hazırlıq dərslərinə fikir verirdim. Hərbi hazırlıq fənnindən dərs deyən müəllimimin tapşırıqlarını həvəslə yerinə yetirirdim. Öyrəndiklərim mənə xidmətə yeni başlayanda köməyimə çatdı. Ali təhsilliyəm. Tver Dövlət Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirmişəm. Hərbi xidmətimi başa vurduqdan sonra aldığım ixtisas üzrə çalışmağı qarşıma məqsəd qoymuşam. İşğal olunmuş torpaqlarımızın azadlığı və Vətənimizin bütövlüyü naminə mübarizəyə hər an hazıram.

**Əsgər
Orxan NOVRUZLU,
"N" hərbi hissəsi**

# Xəbərlər:
## hadisələr, faktlar

### ABŞ-da 3 nəfər tornadonun qurbanı olub



ABŞ-ın cənubunda eyni vaxtda bir neçə güclü tornado baş verib. Təbii fəlakət ən çox Luiziana və Missisipi ştatlarına ziyan vurub.

Tornado nəticəsində 3 nəfər həlak olub, 30-dan çox insan isə yaralanıb. Onlardan 7-nin vəziyyəti ağırdır.

Sürəti saatda 300 kilometrə çatan güclü külək avtomobilləri aşırıb, ağacları kökündən qoparıb, elektrik xətlərini qırıb. Tornadonun tüğyan etdiyi rayonlarda 30 min nəfərdən çox insan elektrik enerjisiz qalıb.

### Slovakiya polisində 80 çevik patrul dəstəsi yaradılıb



Slovakiya polisi 80 çevik patrul dəstəsi yaradıb. Patrulların xüsusi təlim keçən üzvləri ən müasir silahla təchiz olunublar. Onlar hadisə yerinə maksimum tez yetişmək, lazımi tədbirlər görmək iqtidarındadırlar. Məsələn, silahlı cinayətkarları zərərsizləşdirmək zərurəti yarananda bu bölmələr fəaliyyətə keçir.

Slovakiya Daxili İşlər Nazirliyindən jurnalistlərə bildiriblər ki, ölkədə ilk çevik patrul dəstələri 2011-ci ildə Norveçdə baş verən hadisələrdən sonra yaradılmağa başlanılıb. Xatırladaq ki, o vaxt Andres Breyvikin güllələrindən onlarca adam həlak olmuşdu.

### Nepalda qəzaya uğrayan təyyarənin bütün sərnişinləri həlak olub



Fevralın 24-də səhər saatlarında Nepal dağlarında yoxa çıxan təyyarənin bütün sərnişinləri həlak olub. Bu barədə Nepalın Turizm Nazirliyi məlumat yayıb.

"Tara Airlines" aviakompaniyasına məxsus kiçik təyyarə Nepal dağlarında radarlardan itmişdi. Təyyarənin göyərtəsində 20 sərnişin və 3 heyət üzvünün olduğu bildirilir. Onların arasında bir Çin və bir Küveyt vətəndaşı da var.

Pokxara şəhərinin hava limanının nümayəndəsi Yoqendra Kuvara təyyarə havaya qalxdıqdan 10 dəqiqə sonra onunla əlaqənin kəsildiyini bildirib.

### Norveçdə Avropanın ən böyük külək elektrik stansiyası quraşdırılacaq



Norveçin ictimai qurumu "Statkraft" ilə "Tronder Energy" şirkəti birgə Avropanın ən böyük külək enerji stansiyasını quraşdıracaqlar. Layihə dəyəri 11 milyard avro olan külək enerji stansiyası Norveçin Trondelaq bölgəsində quru ərazidə tikiləcək. Sahil xəttində qurulacaq 6 külək enerji parkının ümumi gücü 1000 meqavat olacaq. Stansiyanın inşasına apreldə başlanacaq və layihənin 2020-ci ildə tamamlanması nəzərdə tutulur.

Külək elektrik stansiyasında 2020-ci ildən illik 3.4 teravat-saat bərpa olunan enerji hasil ediləcək. Bununla da, 170 min binanın illik elektrik və istilik enerjisinin ödənilməsi planlaşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

Valideyn sözü

# "Gördüklərimdən ürəyim dağa döndü"

*Gənc əsgərlərin hərbi andiçmə mərasimi başa çatdıqdan sonra valideynlər əsgər kazarmalarına, yeməkxanaya və məişət otaqlarına baş çəkdilər. Övladları üçün hərbi hissədə yaradılmış şəraitlə yaxından tanış oldular. Çöhrələrindən hiss olunurdu ki, onlar gördüklərindən razı qalıblar. Ürəkləri dolu olan valideynlər təəssüratlarını bizimlə bölüşdülər. Onlardan eşitdiklərimiz xoş sözləri oxuculara təqdim edirik.*

Əsgər atası Məmməd Əliyev:

- Oğlum Elnur Əliyevin andiçmə mərasimində iştirak etmək üçün Gəncədən gəlmişəm. Hərbi hissəyə ayaq qoyduğum ilk dəqiqədən hiss etdim ki, burada ciddi nizam-intizam var. Hər tərəfdə səliqə-sahman və təmizlik görəndə ürəyim açıldı. Mən ixtisasca həkiməm. Deyə bilərəm ki, təmizlik və səliqə-sahman olan yerdə həmişə sağlamlıq olar. Xəstəlik heç vaxt ora ayaq aça bilməz. Deməli, əsgərlərimiz həmişə sağlam olacaq. Kazarmalarda, yeməkxanada və məişət otaqlarında əsgərlər üçün hərtərəfli şərait yaradılıb. Belə yüksək şəraiti olan hərbi hissədə xidmət etmək həm zabitlər, həm də əsgərlər üçün xoşdur. Gördüklərimdən ürəyim dağa döndü. Övladlarımız üçün bu cür şərait yaratdığına görə dövlətimizin və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Məktəblilər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi ilə tanış olublar



***Bakı şəhəri 257 və 120 nömrəli tam orta məktəblərinin 9-cu və 10-cu sinif şagirdləri üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə ekskursiya təşkil olunub.***

Məktəblilər tədris olunan "İbtidai hərbi hazırlıq" fənni üzrə keçirilmiş dərslərinin təkmilləşdirilməsi məqsədilə hərbi məktəbin kafedralarındakı tədris, maddi-texniki və digər hərbi təyinatlı vasitələr ilə yaxından tanış olublar. Burada onlara Azərbaycan Ali Hərbi Məktəbinin fəaliyyəti, hərbi kafedralarda döyüş texnikası, atıcı silahlar, onlardan istifadə qaydaları və s. haqqında məlumat verilib.

Bu tanışlıq məktəblilərdə zəngin təəssürat yaradıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Gənc əsgərlər Hərb Tarixi Muzeyində

***Bu günlərdə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin gənc əsgərləri Azərbaycan Hərb Tarixi Muzeyini ziyarət ediblər. Əsgərlər əvvəlcə muzeyin açıq səma altında yaradılan qoşun növləri üzrə ağır texnikalardan ibarət ekspozisiyası ilə tanış olub, onlar barədə ətraflı məlumatları dinləyiblər.***

Geniş ərazini əhatə edən açıq səma altındakı ekspozisiyanın ziyarəti başa çatdıqdan sonra muzeyin binasında yerləşən daxili ekspozisiya ilə tanışlıq başlayıb. Burada da gənc əsgərlər hərb tariximizlə bağlı bilgilər əldə ediblər. Onlara muzeyin yaranma tarixi, məqsədi, zallardakı xronoloji ardıcıllıq haqqında məlumatlar çatdırılıb. Gənc əsgərlər dövrlər üzrə nümayiş olunan eksponatlara maraqla tamaşa ediblər. Daxili ekspozisiyada sərgilənən eksponatlar qədim dövrdən müasir dövrədək hərb tariximizin qəhrəmanlıq səhifələrini əks etdirir. Tarixi sərkərdələrimizin yağlı boya ilə kətan üzərində çəkilən rəsmləri, Milli Qəhrəmanlar guşəsi diqqəti daha çox cəlb edib. Ümummilli lider Heydər Əliyevə həsr olunan geniş və zəngin "Heydər Əliyev və ordu quruculuğu" zalı ilə tanışlıq gənc əsgərlərdə xoş təəssüratlar, qürurverici anlar yaşadıb.



Muzeyi dəfələrlə ziyarət etdiyini bildirən hərbi hissənin zabiti mayor İlqar Nəhmədov sərkərdəlik tariximizi əks etdirən ekspozisiyalar və sərgilərin gənclərin hərbi vətənpərvərlik tərbiyəsindəki rolunun vacibliyini qeyd edib. "Şəxsi heyətin Hərb Tarixi Muzeyi ilə tanışlığının təşkil edilməsi təqdirəlayiq haldır. Xüsusilə, hərbi xidmətə yenicə başlayan gənc əsgərlərin generallarımızı, Azərbaycanın sərkərdə oğullarını yaxşı tanıması, onların döyüş yollarını öyrənməsi qəhrəmanlıq ənənələrinin yaşaması baxımından önəmlidir", - deyə zabit muzeydən xoş təəssüratlarla ayrıldıqlarını vurğulayıb.

Sonda bölük komandiri kapitan Emil Məlikov muzeyin xatirə kitabına şəxsi heyət adından ürək sözlərini yazıb.

**"Azərbaycan Ordusu"**

---

*Könlüm şeir istəyir*

# "Silahından ayrılmaz, igid əsgər, qəhrəman!"



***...Əsrlərdir insanlarla cığırdaşlıq edən söz heç zaman dəyərini itirmir. Şeir müqəddəsdir, söz əbədidir. Böyük rus yazıçısı L.Tolstoy şeirə yüksək qiymət verərək yazırdı: "Şeir Allahın dilidir". Buna görə şairlər də cəmiyyətdə hörmətə, diqqətə layiq insanlardır. "Şair hamının qarşısında ürəyini açan adamdı". Bu fikir yapon mütəfəkkiri Akutaqavaya məxsusdur. Nə xoşdur ki, Azərbaycanın da gözəl söz ustadları, şairləri, yazıçıları olub və bu gün də var.***

Yaradıcılığı Vətənlə, torpaqla bağlı olan ustad Rəsul Rza insanlarla ürəyindən qəlbinə süzülən şeirləri ilə danışırdı. "Rənglər"lə rənglər dünyası yaradırdı. Oxucularını yaradıcılığının, sözünün işığına toplayırdı. Şairin şeirləri dünən də sevilə-sevilə oxunurdu, bu gün də sevilə-sevilə oxunur. Nəsillər dəyişilsə də, şairin poeziyasına oxucu marağı dəyişilmir. Ustadın şeirlərinə yazılmış neçə-neçə mahnılar dillər əzbəridir.

Şairin gücü, qüdrəti yazdığı əsərlərdədir. Rəsul Rzanın hər sözü, hər misrası düşündürücüdür. Şair sözə həssaslıqla yanaşır, ona təzə nəfəs verir, ürək qızdırır. Ustadın "Mən torpağam" şeirini oxuduqca şair sözünün gücünə heyran olmaya bilmirsən. Onun əsərlərində Vətənimizin gözəlliyi könül xoşluğu ilə, böyük sənətkarlıqla tərənnüm edilir. Oxucu da bu təsvirlərdən, rəngarəng boyalardan zövq alır. Yurdumuz haqqında təəssüratları daha da genişlənir.

*Mən torpağam,*
*məni atəş yandırmaz,*
*Tərkibimdə kömürüm var,*
*külüm var.*
*Mən baharam,*
*çəmən-çəmən,*
*Çiçəyim var, gülüm var...*

R.Rza poeziyasının xarakterik xüsusiyyətlərindən biri də hadisələri dərindən təsvir etməkdir. Şairin misraları təbiətin gözəlliyindən yoğrulub. Ustad belə poetik misraları ilə oxucunun qəlbinə, ürəyinə asanlıqla yol tapır.

Şair 1942-ci ildə qələmə aldığı "Azərbaycan döyüşçüləri" şeirində Vətənə məhəbbətini, yurda sevgisini çox poetik şəkildə ifadə edib. İllər keçsə də, bu şeir oxucunu duyğulandırıb coşdurur, Vətən sevgisini artırır. Ustad sözləri ilə döyüşçülərə arxa durur, onlara məsləhət və tövsiyələr verir. Onun Azərbaycan döyüşçülərinə ünvanladığı şeir də diqqətçəkəndir:

*Sizədir sözüm mənim,*
*el oğul, doğma qardaş!*
*Yaranan tarix üçün*
*səhifədir bu savaş.*
*...Qalib çıxan xalqların*
*böyük təntənəsində,*
*Pərdə-pərdə qoy axsın,*
*sənin məğrur səsin də!*
*Ürəyi bölmək olmaz,*
*bu yaxın, uzaq - deyə,*
*Yurdu ayırmaq olmaz,*
*bu dərə, bu dağ - deyə.*
*Bəlkə də Murov dağın*
*daha yüksəkdir başı,*
*Çadır-dağ dura bilməz*
*Qoşqarımla yanaşı...*

*Ancaq alıb torpağı,*
*bir ovcuna baxsana,*
*Ana Vətən qoxusu*
*yayılar dörd bir yana...*

Şairin əsərləri Vətənin müdafiəsində dayanan əsgərlərə öyüd-nəsihət, xeyir-dua gücündədi. İllərcə əvvəl yazılmış həmin şeirlər bu günümüz üçün də çox aktualdır. Hamımız üçün bir çağırışdır. Şairin Vətənin müdafiəsində dayanan döyüşçülərə, əsgərlərə ünvanladığı "Tüfəngi qoru" şeiri də maraqlıdır. Bu şeir həm də bir komandir, döyüşçü məsləhəti kimi də qiymətlidir. Bu misraların dəyəri heç vaxt sönən deyil.

*Silah sadə dost deyil,*
*bir döyüş yoldaşındır,*
*Dar günündə həyanın,*
*dostundur, qardaşındır.*
*Qoru onu ad kimi,*
*Vətən torpağı kimi,*
*Azad insan yurdunun*
*qızıl Bayrağı kimi!*
*Yaralansa sağ əlin,*
*onu solunla götür,*
*Barmaqların olmasa,*
*iki qolunla götür.*
*Sürünüb gedər olsan,*
*dişlərinə al, onu,*
*Qoltuğuna sıx apar,*
*ya boynuna sal, onu!*
*Ancaq düşmənə vermə,*
*sevindirmə yağını,*
*Tullama süngüsünü,*
*sındırma qundağını.*
*Eldir, Ana Vətəndir,*
*onu sənə tapşıran,*
*Silahından ayrılmaz,*
*igid əsgər, qəhrəman!*

Gözəl şeirdir, şairin poeziyasında həm xalq yaradıcılığı, həm də klassik şeirə xas olan yüksək poetik keyfiyyətlər birləşir. Buna görə də onun yaradıcılığı, poeziyası xalq tərəfindən sevilir və seviləcəkdir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

---

# Əsgərlik dostluğu möhkəm olur

***Bakı şəhəri Nizami rayonundan hərbi xidmətə çağırılmışam. Hələ aşağı siniflərdə oxuyarkən əynimə hərbi forma geyinib vətənpərvərlik tədbirlərində iştirak edir, özümü əsgər kimi aparırdım. Sonralar o formanın məsuliyyətini dərindən dərk etməyə başladım. Dəfələrlə məktəblər arasında keçirilən "Cəsurlar", "Şahinlər" hərbi idman oyunları üzrə yarışlarda qalib oldum. Belə yarışlara böyük həvəslə qatılırdım.***



Artıq Azərbaycan Ordusunun əsgər formasını əynimə geyinib hərbi and içərək Silahlı Qüvvələrimizin sıralarına qəbul edilmişəm. Vətənimizin keşiyini çəkən ayıq-sayıq əsgərlərindən biriyəm. Hərbi xidmətə gəldiyim 6 aya yaxındır. Xidmətimin çətin dövrü arxada qalıb. Burada özümə çoxlu dostlar qazanmışam. Axı deyirlər, əsgərlikdə yaranan dostluq əbədi olur. O dostları heç bir qüvvə ayıra bilməz.

Komandirlərimizin verdiyi tapşırıqları vicdanla yerinə yetirir, hərbi vərdişlərə yiyələnirik. Sıra hazırlığımızı daha da artırır, döyüş və fiziki vərdişlərə həvəslə yiyələnirik. Asudə vaxtlarımızda hərbi hissədə yaradılan əsgərin məişət otaqlarına gedib səliqə-sahmanımızla məşğul olur, televiziya verilişlərinə baxır, şahmat, domino oynayırıq.

Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovalyov adına orta məktəbi bitirdikdən sonra Bakı Texnologiya və İdarəetmə Kollecinə daxil olmuşam. Burada yol hərəkətlərinin təşkili və təhlükəsizliyi ixtisasına yiyələnmişəm. Vətənə övladlıq borcumu verib, geri dönəndən sonra təhsilimi davam etdirmək fikrindəyəm.

Hər zaman Ali Baş Komandanın torpaqlarımızın düşmən işğalından azad edilməsi əmrinə hazıram.

**Əsgər**
**Ələddin QƏNİYEV,**
**"N" hərbi hissəsi**

---

Leytenant Ələkbərova İlhamə Tanrıverdi qızına 2015-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Abuzərov Səxavət Etibar oğluna 2012-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Lalə HÜSEYNOVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 107 Nüsxə 4700 |